

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

24 sentyabr 2020-ci il
Cümə axşamı

№ 34 (3499)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## "ABŞERON" YATAĞININ İSTİSMARI İQTİSADİ SƏMƏRƏNİ ARTIRACAQ

**Prezident İlham Əliyev: "...Neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik... Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik"...**

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyevə "Abşeron" yatağında quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat verilib.

Bildirib ki, "Abşeron" yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir. "Abşeron" layihəsi üzərində iş zamanı "BOS Şelf" şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqdan qazın hasilatı üçün quraşdırılacaq platforma öz növünə görə nadirdir. Belə ki, platformanı kənardan, yəni, "Neft Daşları"nda yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. "Abşeron" layihəsində Xəzərdə ilk dəfə "boru içində boru" texnologiyası tətbiq olunacaq.




Sonra "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlinin qoyulmasını bildirən düymə basılıb.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Daha sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibə verib.

## Ölkəmizə yeni təcili tibbi yardım avtomobilləri gətirilib

Sentyabrın 22-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar.

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir.

Prezident İlham Əliyevin tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülür. Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə indi gətirilib.

Yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

Bu avtomobillər avadanlıq və burada göstərilən tibbi yardımın genişliyi baxımından digər ambulanslardan fərqlənir. Avtomobillər bir neçə xərəklə - əsas xərək, çoxfunksiyalı xərək (pilləsiz), scoop xərək, onurğa xərəyi, vakuum xərəyi və pompa, daşıma çadırı, üfürülən, dartma və vakuum şina dəstləri, defibrilyator, portativ süni tənəffüs aparatı, inqolyator, elektrokardioqramma, reanimasiya çantası və s. vasitələrlə təchiz edilib.

## BMT Baş Assambleyasının 75-ci Sessiyası Təşkilatın 75 illiyinə həsr edilib

Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib.

İclasda ümumilikdə 182 ölkənin dövlət və hökumət başçısı videoformatda çıxış edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı sayca altıncı olub. Dünya üzrə 182 ölkə arasında Azərbaycanın dövlət başçısının sayca altıncı çıxış etməsi şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürüdür.

Qeyd edək ki, dövlətimizin başçısı çıxışını iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi edib.

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-də Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olublar.**

***Sentyabrın 19-da dövlətimizin başçısı Azərbaycan Respublikasının neft sənayesi işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri sentyabrın 21-də Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 21-də Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı sentyabrın 22-də Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

## Türkiyə Azərbaycanın yanındadır

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti dünən Ermənistanın təxribatı nəticəsində dövlət sərhədində Azərbaycan hərbi qulluqçusunun şəhid olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana daim göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Dövlət başçıları dost və qardaş Türkiyə ilə Azərbaycanın həmişə olduğu kimi, bundan sonra da bir-birinin yanında olacağını vurğulayıblar.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

## Ukraynadan Azərbaycana dəstək

Sentyabrın 22-də Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Dövlət başçıları pandemiya ilə mübarizə sahəsində Ukraynada və Azərbaycanda həyata keçirilən işlərdən danışıblar.

Söhbət zamanı Vladimir Zelenski bildirib ki, Ukraynanın yeni milli təhlükəsizlik strategiyasında Azərbaycan strateji tərəfdaş kimi göstərilib.

Prezident İlham Əliyev, öz növbəsində, qeyd edib ki, Azərbaycan üçün də Ukrayna strateji tərəfdaşdır.

Dövlət başçıları Ukraynanın və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərində ölkələrimizin bir-birini dəstəklədiyini qeyd ediblər.

Telefon söhbəti zamanı enerji, nəqliyyat, investisiya, aviasiya sənayesi, kənd təsərrüfatı, turizm, humanitar və idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün konkret addımların atılmasının zəruriliyi qeyd edilib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən hərbi təxribatlar barədə Ukrayna Prezidentini məlumatlandırıb.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sentyabrın 22-də Bakının Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən 212 saylı uşaq bağçasının və Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin yeni binalarının istifadəyə verilməsi mərasimində iştirak edib.**

## Güclü iqtisadiyyat güclü dövlət deməkdir

Qlobal böhran şəraitində böyük dövlətlərin iqtisadiyyatındakı tənəzzül 20-31 faiz həddinə yüksəldiyi halda, Azərbaycanda bu rəqəm cəmi 2,8 faizdir. Ancaq onu da vurğulamalıyıq ki, Azərbaycan pandemiya ilə mübarizə tədbirlərini yalnız öz iqtisadi imkanları çərçivəsində reallaşdırıb. Dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər, vətəndaş sağlamlığının qorunması istiqamətində atılan addımlar, insanların sosial-rifah halının yaxşılaşdırılması istiqamətində qəbul edilən dəstək proqramları digər ölkələr üçün nümunəvi xarakter daşıyıb.

Təcrübə göstərdi ki, daha çevik, operativ qərarların qəbul olunması, korporativ idarəçilikdə yeniliklərin tətbiq edilməsi və bəzən mərkəzləşdirilmiş siyasətə üstünlüyün verilməsi yarana biləcək daha böyük problemlərin qarşısının alınmasında öz faydasını verə bilər.

Dövlət başçısı çevik, şəffaf, obyektiv informasiya sisteminə əsaslanan və ayrı-ayrı strukturları bir tam halında sinxronlaşdırmağı bacaran yeni idarəetmə modeli yaradır.

Bir sözlə, İlham Əliyev qlobal böhran şəraitində həyata keçirdiyi struktur islahatları ilə iqtisadi və korporativ idarəetməni daha da modernləşdirir. Bu da onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin möhkəm təməl üzərində formalaşdırdığı iqtisadi strategiyası böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatlarının həyata keçirilməsinə təkan verir.

Pandemiya ilə mübarizə tədbirləri fonunda ölkə iqtisadiyyatında 8 ayda 2,8 faizlik azalma müşahidə olunsa da, qeyri-neft sektorundakı 1,6 faizlik artım sevindirici haldır. Çünki bu, digər ölkələrlə müqayisədə çox yaxşı göstəricidir. Həm də onu təsdiq edir ki, Azərbaycanda qeyri-neft sektoru qlobal böhran şəraitində də inkişafdadır.

İqtisadçılar ortamüddətli dövrdə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72,2 faizə, neft sektorunun payının isə 27,8 faizə bərabər olacağını proqnozlaşdırırlar. Qeyd edilir ki, neftin qiyməti 35 dollar olacağı halda ölkəmizdə ÜDM-in həcmi 2021-ci ildə 3 faiz, 40 dollar olacağı halda 3,4 faiz, 45 dollar olacağı təqdirdə isə 3,8 faiz artacaq. Proqnozlara görə, 2021-ci ildə ölkəmizdə ən sürətli inkişaf tempinə 35,7 faizlə turizm sektoru başçılıq edəcək. Daha sonra informasiya və rabitə (9 faiz), kənd təsərrüfatı (4,9 faiz) sektorlarının artımı gözlənilir.

# DAXİLİ İŞLƏR NAZİRİ TÖVSİYƏLƏRİNİ VERDİ

**Sentyabrın 17-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq,





Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 240 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# Polis Akademiyasının Elmi Şurasının iclası keçirilib

## Nəticələr qənaətbəxşdir. Müzakirə olunan məsələlər və verilən səmərəli təkliflər yeni tədris ilində də qazanılacaq uğurlara zəmin yaradır

**DİN-in Polis Akademiyasının Elmi Şurasının ilk iclasını giriş sözü ilə açan Akademiyanın rəisi vəzifəsini müvəqqəti icra edən, polis polkovniki Canpolad Daanov 2020/2021-ci yeni tədris**



**ilinin başlanması münasibətilə Elmi Şuranın üzvlərinə, Akademiyanın kollektivinə və professor-müəllim heyətinə Daxili İşlər naziri, general polkovnik Vilayət Eyvazovun təbrikini çatdırdı.**

Pandemiya dövründə respublikamızda vətəndaşlarımızın sağlamlığının, sosial-iqtisadi durumunun Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən daim nəzarətdə saxlanıldığını, çox ciddi tədbirlərin görüldüyünü diqqətə çatdıran C.Daanov bu çətin və məsuliyyətli günlərdə həkimlərlə yanaşı, Azərbaycan Polisinin də böyük bir fədakarlığa imza atdığını xüsusi vurğuladı.

O da qeyd olundu ki, koronavirusla mübarizə tədbirlərində bütün dövlət qurumları yüksək səviyyədə peşəkarlıq nümayiş etdirdilər. Pandemiya səbəbindən Akademiyada dərslərin onlayn keçirilməsi müəyyən çətinliklər yaratsa da DİN rəhbərliyinin diqqət və qayğısı nəticəsində təlimdə və tədrisdə gerilik müşahidə olunmadı. Akademiyanın professor və müəllim heyəti üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldi.

İclasın gündəliyi elan edildikdən sonra Plan səsə qoyuldu, təsdiq edildi və gündəlikdə duran məsələlərin müzakirəsi aparıldı.

**Tədris-metodiki şöbənin rəisi, polis polkovniki Fərhad Əliyev** 2019/2020-ci tədris ilinin yekunları, yeni dərs ilində tədris prosesinin təkmilləşdirilməsi tədbirləri barədə təqdimatla çıxış edərək bildirdi ki, Akademiyada daxili işlər orqanları üçün yüksək ixtisaslı, peşəkar kadr hazırlığı istiqamətində təlim-tədris prosesi həyata keçirilmiş, xidməti fəaliyyət davam etdirilmişdir. Tədris ili ərzində bir sıra uğurlara imza atılmış, respublikanın ali təhsil müəssisələri ilə əlaqələr genişləndirilmiş, təhsil və elmi-tədqiqat sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədilə görüşlər keçirilmişdir.

**Sonra məruzə ətrafında Akademiyanın tədris və elmi işlər üzrə müavini, professor, polis polkovniki Mahir Əhmədov, kafedra rəisləri, polis polkovnikləri - dosent Ceyhun Süleymanov, dosent Rafiq Nəcəfquliyev, Famil Muradov, dosent İmrəli Məmmədli, dosent Səyyad Ağayev, dosent Allahverdi Mahmudov və dosent Hacı Aslanov** 2019/2020-ci tədris ilinin yay imtahan sessiyasının yekunları və yeni tədris ilində görüləcək işlər barədə məruzə etdilər.

**Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, polis polkovniki, dosent Hikmət Eyvazov** professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris vəsaitlərinin müzakirəsi ilə bağlı Elmi Şuranın üzvlərinə məlumat verdi. Müzakirəyə təqdim edilən vəsaitlər şura üzvləri tərəfindən qəbul edildi.

Daha sonra iclasın sədri müzakirə olunan məsələlərlə və verilən təkliflərlə əlaqədar işlərin qısa müddətdə icrası üçün müvafiq struktur rəhbərlərinə tapşırıqlar verdi.

# “SƏYYAH KİTAB” LAYİHƏSİNƏ POLİSLƏR DƏ QOŞULDU

**Gənclərin İnkişaf və Karyera Mərkəzinin Biləsuvar nümayəndəliyi könüllüləri tərəfindən həyata keçirilən “Səyyah Kitab” layihəsinə Rayon Polis Şöbəsinin əməkdaşları da qoşulublar.**



Onlar layihəyə dəstək olmaq məqsədi ilə, Azərbaycan və dünya ədəbiyyatının görkəmli




nümayəndələrinin kitablarını könüllülərə hədiyyə ediblər.

Layihə çərçivəsində açıq havada təşkil olunan qiraət saatlarında həmkarlarımızın iştirakı gənclərlə yanaşı, rayon ictimaiyyəti tərəfindən də maraqla qarşılanıb.






Gənclərin İnkişaf və Karyera Mərkəzinin Biləsuvar nümayəndəliyinin rəhbəri Səbinə Hüseynzadə bildirib ki, təşəbbüsün məqsədi gənclər arasında kitabı sevdirmək, mütaliəni təbliğ etməkdir. Bu məqsədlə, yeni kitablar alınmaqla yanaşı, ianə olaraq bədii kitablar da toplanır, rayonun mərkəzində və kəndlərdə açıq havada oxu günləri təşkil olunur.

S.Hüseynzadə onu da diqqətimizə çatdırdı ki, qiraət saatlarında rayon əhalisi, xüsusilə gənclər kitablarla tanış olur, karantin şərtlərinə riayət etməklə istədikləri kitabı seçir və mütaliə edirlər.

*T.Hafiz*

# Ətraf mühitə ziyan vurdu, cərimələndi

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə mütəmadi olaraq reydlər keçirilir.**

Sentyabrın 18-də paytaxtın Xəzər rayonu ərazisində keçirilən növbəti belə tədbir zamanı Şüvəlan qəsəbəsi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması faktı aşkar edilib.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə qəsəbənin inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini A.Ağabəyov barəsində protokol tərtib edilərək 3 min manat məbləğində cərimələnib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov*

# ABŞ təcrübəsi maraq doğurur

**ABŞ-da təqsirləndirilən şəxsə ömürlük həbs cəzasından başqa 120, 130, 150 və daha çox müddətə azadlıqdan məhrumetmə cəzası da təyin edilir. Əslində, bu cür “cəfəng” məhkəmə hökmlərinin səbəbi çox sadədir.**

Amerikanın ədalət mühakiməsi sistemi bir qədər fərqlidir. Burada bir növ “toplama” sistemindən istifadə olunur: hər sübuta yetirilmiş cinayətə görə müttəhimə təyin edilən cəzaların müddətləri toplanır. Məsələn, əgər təqsirləndirilən şəxs adam öldürübsə 10 il, izi itirmək üçün yanğın da törədibsə 5 il azadlıqdan məhrum olunma cəzası alır. Analoji qaydada şəxsə bir neçə ömürlük həbs və ya 120 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilir.

Bu cür ədalət mühakimə sistemi təhlükəli cinayətkarları cəmiyyətdən təcrid edir.

Amerikada müddətlərin qısaldılması və amnistiya əsasında azadetmə təcrübəsi geniş yayılmışdır. Məhbus nümunəvi davranışa və səmimi peşmançılığa görə ona təyin edilmiş cəzanın yarısını çəkəndən sonra azadlığa buraxıla bilər. Ömürlük həbs cəzasına məhkum edilmiş məhbus yurisdiksiyadan asılı olaraq 15-25 il həbsdə qaldıqdan sonra cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə haqqında vəsatət qaldıra bilər. Lakin bir neçə ömürlük cəza təyin olunmuşdursa, şərti olaraq vaxtından əvvəl azadetmə ilə bağlı müraciət etməzdən əvvəl çəkilməli olan 25 illik müddətlərin sayı da onlara müvafiq olaraq artır. İki ömürlük cəza təyin olunduqda cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə ilə bağlı müraciət etməzdən əvvəl məhbus 50 il həbsdə qalmalıdır. Üç olduqda – 75 il.

Beləliklə, sistem real təhlükə yaradan şəxsləri cəzalandırmaqla həqiqətən qanuna tabe olmaqla yaşamağa davam etmək istəyən şəxslərə şans verir.

Bir neçə ömürlük həbs cəzası, müvafiq olaraq, məhbus üçün həmin variantı istisna edir. Bundan başqa, bir qanun pozuntusunun müxtəlif hissələrinə ayrılıqda baxmaq təcrübəsi də mövcuddur.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# DİN-in Polis Akademiyası 2020-ci il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli, 493s nömrəli sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planına əsasən 2020-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | |
| | | | büdcə hesabına qiyabi | ödənişli əsaslarla qiyabi | | büdcə hesabına | ödənişli əsaslarla |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 5 | 2 | **3** | 4 | 1 | **3** |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 5 | 2 | 3 | 4 | 1 | 3 |
| | **Cəmi:** | **10** | 4 | 6 | **8** | 2 | 6 |

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya** sənədlər 14 sentyabr - 7 oktyabr 2020-ci il tarixlərində hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək, qəbul ediləcək.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan daxili işlər orqanları əməkdaşları müsabiqə əsasında qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən əməkdaşlar xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Xarici dildən imtahanda keçid balını toplayan əməkdaşlar fəlsəfədən imtahana buraxılırlar.

Fəlsəfədən məqbul alan əməkdaşlar ixtisas imtahanına buraxılırlar.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

***- DİN-in Polis Akademiyasının rəisinin adına raport;***

***- kadrların şəxsi-qeydiyyat vərəqi;***

***- tərcümeyi-hal;***

***- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***

***- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;***

***- iş yerindən xasiyyətnamə;***

***- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;***

***- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);***

***- xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (IELTS, TOEFL, TestDaf, DALF) əgər varsa);***

***- şəxsiyyəti təsdiq edən sənədin surəti.***

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaf, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin ekvivalentliyi AMEA və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyənləşdiriləcək.

**Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi və elmi-pedaqoji iş stajına malik elmi və elmi-pedaqoji kadrlar sənəd təqdim edə bilərlər.

Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran əməkdaşlar slər eyni ixtisas üzrə təkrar dissertant ola bilməzlər.

Doktoranturada tam təhsil müddətini başa vurmuş əməkdaşlar eyni ixtisas üzrə dissertantlıq yolu ilə təhsil ala bilməzlər.

Dissertantlıq yolu ilə fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən əməkdaşlar xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertanturaya qəbulla bağlı aşağıdakı sənədlər DİN-in Polis Akademiyasına təqdim olunmalıdır:

***- DİN-in Polis Akademiyasının rəisinin adına raport;;***

***- kadrların şəxsi-qeydiyyat vərəqi;***

***- tərcümeyi-hal;***

***- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***

***- iş yerindən xasiyyətnamə;***

***- əmək kitabçasından çıxarış;***

***- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);***

***- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);***

***- şəxsiyyəti təsdiq edən sənədin surəti.***

Əlavə məlumat üçün DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinə müraciət etmək olar.

**Əlaqə telefonları: (+994 12) 454-13-85, 454-34-57.**

**E-mail: ehg69@mail.ru**

**Qeyd: Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər.**

# Döyüş ruhu, mübarizə əzmi ilə...

Şəxsi heyətin, maddi vəsaitlərin əməliyyatların keçirildiyi rayonlara daşınması, patrul-nəzarət, axtarış-xilasetmə uçuşlarının həyata keçirilməsi, həmçinin, paraşüt-desant və xüsusi həmlə qrupları ilə birlikdə fəaliyyətlərə daim hazır olması Daxili Qoşunların "N" saylı hərbi hissəsinin qarşısında duran əsas vəzifələrdir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayev bu gün şəxsi heyətin verilən tapşırıqların öhdəsindən peşəkarlıqla gəldiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçular peşə hazırlığının daha da artırılması istiqamətində yüksək əzmlə çalışır, istifadədə olan helikopterlərin hər an uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər.

Hərbi hissənin helikopter manqası ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hissə üzrə birincilik qazanıb. Manqa komandirinin vəzifəsini müvəqqəti icra edən mayor Ceyhun Qurbanzadə ilə şəxsi heyətin əldə etdiyi müsbət nəticə və



işin hansı istiqamətdə qurulduğu barədə söhbətləşdik. O, tabeliyində olan hərbi qulluqçularda döyüş hazırlığının qorunub saxlanılması istiqamətində çalışdığını, bunun üçün şəxsi heyətlə helikopter kabinəsində planlaşdırılmış uçuş tapşırığına müvafiq olaraq məşğələlər təşkil olunduğunu bildirdi. Həmçinin, manqa komandiri qeyd etdi ki, ekipajların uçuşlara hazırlığına, uçuşların təhlükəsizliyinə, hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, uçuş heyətinin öyrədilməsinə nəzarət edir. Uçuşlara ilkin hazırlığın keçirilməsi

***Helikopter manqasının şəxsi heyətinin ən böyük arzusu Qarabağ səmasında mühüm tapşırıqları yerinə yetirməkdir***



planını, planlaşdırılmış uçuş tapşırıqlarının yerinə yetirilməsi üçün əyani və tədris vasitələrinin siyahısının tərtib etmək onun əsas vəzifələrindəndir.

Bu sahənin spesifikliyini, hər an təhlükə ilə üz-üzə olduqlarını xüsusi vurğulayan mayor C.Qurbanzadə uçuşqabağı hazırlıq prosesində lazımi hesablamalar aparmağın, helikopterlərin kabinələrində ekipajlara istənilən mümkün meteoroloji və ornitoloji şəraiti nəzərə alaraq uçuş tapşırıqlarının xüsusiyyətlərini əks etdirən məşqlər keçirməyin vacibliyini də bildirdi. Dedi ki, Daxili Qoşunların komandanının təsdiq etdiyi illik uçuş planına uyğun olaraq, Eskadrilyanın uçuş heyətilə təlim-məşq uçuşları təşkil olunur. Uçuşa əvvəlcədən hazırlıq proseslərinə uçuş məlumatlarının hazır olması, marşrut üzrə naviqasiya elementlərinin hesablanması, tibbi yoxlamadan keçmək, helikopterin uçuşa hazırlığını yoxlamaq kimi məsələlər aiddir. Hər bir uçuş növbəsinin sonunda manqanın şəxsi heyətilə keçirilmiş uçuşların "Azərbaycan Respublikası Hava Fəzasında Əsas Uçuş Qaydaları" təlimatına əsasən müvafiq təhlillər aparılır.

Həmçinin, normativ sənədlərin tələblərinə uyğun olaraq, planlı şəkildə hərbi hissədə helikopterlərdə reqlament işləri aparılır, onlara texniki qulluq göstərilir.

Mayor C.Qurbanzadə helikopter manqasının pilotlarının peşəkarlığından danışarkən avqustun 26-dan 29-na kimi Balakən rayonu ərazisində xüsusi əməliyyatın keçirilməsinə polis əməkdaşları ilə yanaşı, hərbi qulluqçuların da cəlb olunduğunu, həmin əməliyyat zamanı hərbi hissə komandiri polkovnik Hüseyn İsmayılovun rəhbərliyi ilə beş nəfərdən ibarət heyətin yüksək uçuş bacarığı və peşəkarlıq göstərdiyini xüsusi vurğuladı.

Şəxsi heyətdə böyük ruh yüksəkliyi və özünəinam hissi formalaşıb. Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur duyan və peşə əzmkarlığı göstərən manqanın şəxsi heyətinin fəaliyyəti təqdirəlayiqdir. Mayor C.Qurbanzadə nümunəviliyi, bacarığı, təcrübəsi ilə seçilən hərbi qulluqçulardan, kapitanlar - Natiq Cəbrayılovun, Şəhriyar Bayramovun, Emil Xasmetovun, Tərlan Xəlilovun, Kənan Nəsibovun, Anar Qurbanovun, Samir Xəlilovun və Rəşad Hüseynovun adlarını çəkdi.

Peşəkar komanda ilə xidmət edən helikopter manqasına aydın səma və daim yüksəkliklərdə olmağı arzulayırıq.

*baş leytenant Nigar Ağayeva*

**Cənubi Afrika Respublikasının vətəndaşı Nizamuddin İsmail Daxili İşlər Nazirliyinin rəsmi "İnstagram" səhifəsinə 16 sentyabr saat 18:03-də ünvanladığı müraciətdə qarşılaşdığı problemdən narahatlığını bildirərək, özünün və ailəsinin təhlükə ilə üz-üzə qaldığını qeyd edirdi: "Salam, mən və ailəm sizdən kömək istəyirik. Bizim problemimiz var. Burada heç kimi tanımırıq, ümidimiz sizədir."**



# CAR vətəndaşı polisə təşəkkür etdi

Son dərəcə həyəcan və təşviş içində yazılan bu müraciət DİN rəhbərliyinin göstərişi ilə dərhal araşdırıldı və əcnəbi vətəndaşla əlaqə saxlanıldı. Onun yaşadığı ünvan Nəsimi RPİ-nin əməkdaşları tərəfindən dəqiqləşdirildi…

Ertəsi gün CAR vətəndaşından DİN-in rəsmi "İnstagram" səhifəsinə gələn məktubda minnətdarlıq və ən əsası Azərbaycan Polisinin fəaliyyətindən məmnunluq hissi ifadə olunurdu: "Salam, Azərbaycan Polisi! Mən şöbədən indi döndüm. Öncə deməliyəm ki, sizin polisləriniz çox yaxşı işləyirlər. Üzləşdiyim problemi operativ və obyektiv həll etməyinizə görə Allah sizin rəhbərliyinizi və əməkdaşlarınızı mükafatlandırsın. Dünyanın heç bir yerində belə gözəl polis görməmişəm. Sizi çay süfrəsinə dəvət edirəm. Yaşasın, Azərbaycan Polisi!"

DİN-in sosial şəbəkələrdəki rəsmi səhifələrinə hər gün yüzlərlə müraciət ünvanlanır. Çalışırıq ki, vətəndaşlarımızı, ölkəmizə təşrif buyuranları maraqlandıran hər bir sualı vaxtında və dəqiq cavablandıraq. CAR vətəndaşının bu müraciətinə gəlincə, Azərbaycan Polisi öz vəzifə borcunu yerinə yetirib. Hər hansı ayrı-seçkilik etmədən, öz missiyasına sadiq qalaraq ölkəmizdə qonaq olan əcnəbiyə vaxtında və keyfiyyətli xidmət göstərib.

Yeri gəlmişkən, həmkarlarımız N.İsmailin qonağı oldular. Məlum olub ki, o da öz ölkəsində daxili işlər orqanlarında xidmət edir, polis əməkdaşıdır.

**Nizamuddin İsmail:** "Səmimi deyim ki, sizin "İnstagram" səhifənizə müraciət edəndə belə çevik reaksiya gözləmirdim. Bu, məni yaxşı mənada təəccübləndirdi. Ailəmlə birgə Avropa və Cənubi Amerika dövlətlərində çox olmuşam, amma Azərbaycan Polisi qədər güləruz, səmimi və ədalətli asayiş keşikçiləri görməmişəm. Qarşılaşdığımız problemə görə qızım Məryəm çox qorxmuşdu. Mən isə nə edəcəyimi bilmirdim, yaşadığım binada qonşularla məsləhətləşdim. Onlar mənə "polis-azerbaycan" "İnstagram" səhifənizə yazmağımı tövsiyə etdilər. Heç beş dəqiqə keçmədi ki, cavab gəldi"...

*Nurlan Əliyev,*
*polis leytenantı*

# Keçmiş məhkum maşın oğurladı...

Səhər saatlarında işə getməyə hazırlaşan Qulam Qurbanov yaşadığı binanın həyətində avtomobilini görməyəndə məsələnin nə yerdə olduğunu anlayıb. Vaxt itirmədən Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinə müraciət edib.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində bölmə əməkdaşları oğurluqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Zaur Fətəliyevi saxlayıblar. **Bölmə rəisi, polis mayoru Cavid İsmayılzadənin** sözlərinə görə, Zaur hadisəni törətdiyi vaxt sərxoş olub. O, ifadəsində spirtli içkinin təsiri altında olduğundan nə etdiyini bilmədiyini söyləyib. Avtomobilin saxlandığı həyətdən keçərkən gözü “Tofaş”a sataşıb. Əlindəki açarla qapını birtəhər açdıqdan sonra maşında olan vintaçanla da avtomobili işə salıb. Ancaq polisin çevikliyi və peşəkarlığı sayəsində çox uzağa gedə bilməyib...

Avtomobil sahibinə qaytarıldıqdan sonra təqsirləndirilən şəxs barəsində toplanmış materiallar Binəqədi RPİ-nin İstintaq Şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.



*****

Daha bir uğurlu əməliyyat Nizami RPİ 24-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilib. Rayon ərazisində oğurluq hadisəsinin üstü “isti izlər”lə açılıb.

Belə ki, daxil olmuş məlumat əsasında **şöbə rəisi, polis polkovnik-leytenantı Seymur Qarayev** tərəfindən əməliyyat-axtarış qrupu yaradılıb. **Baş əməliyyat müvəkkilləri, polis mayorları Aqil Cəfərov, Mətləb Umudov və əməliyyat müvəkkili, polis leytenantı Zöhrab Məmmədov** dərhal hərəkətə keçiblər. Onlar “Toyota Prado” markalı avtomobilin dəyəri 2 min manat olan səsboğucu sistemini (katalizator) oğurlayan Binəqədi rayon sakini, əvvəllər məhkum olunmuş Talıb Ağalarovu saxlayıblar.

Araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb. Bəlli olub ki, “qənimətini” Sumqayıt şəhərində 300 manata satan Talıb, icarəyə götürdüyü daha bir neçə avtomobildən də eyni üsulla səsboğucular oğurlayıb. “Peşəsi” oğurluq olan T.Ağalarovun digər şəhər və rayonlarda da anoloji əməllər törətdiyi şübhə doğurduğundan ətrafında əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*Teymur Əlizadə, polis kapitanı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Baş Narkotiklərlə Mübarizə İdarəsi və Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşları daxil olmuş məlumat əsasında Nəsimi rayonu ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Hüseynov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram heroin aşkar edilərək götürülmüşdür.

*****

Biləsuvar RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakinləri E.Hüseynov və Z.Məmmədov saxlanılmışlar. Şəxsi axtarış zamanı onlardan 528 qramdan artıq heroin götürülmüşdür.

*****

Lənkəran ŞRPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş N.Cəfərov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 7 kiloqram 715 qram marixuana götürülmüşdür.

*****

Suraxanı RPİ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş P.Həzilinin idarə etdiyi “Mercedes” markalı avtomobil Hövsan qəsəbəsi ərazisində saxlanılmışdır. Baxış zamanı avtomobildən 1 ədəd qundağı kəsilmiş, nömrəsi silinmiş ov tüfəngi, 1 ədəd nömrəsi silinmiş pnevmatik tapança, 1 ədəd bıçaq, 2 ədəd boş giliz, 1 ədəd dəyənək və üzərinə bıçaq tiyəsi bərkidilmiş alət aşkar edilərək götürülmüşdür.

*****

Bərdə RPŞ-yə cari il avqustun 23-də rayon sakini olan bir qızın video və şəkillərinin sosial şəbəkədə yayılacağı ilə hədələnərək ondan min manat tələb edilməsi barədə müraciət daxil olmuşdur.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində hədə-qorxu ilə tələb etməkdə şübhəli bilinən Hüseynbəyli kənd sakini C.Qasımov müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılmışdır.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələbetmə) maddəsi ilə cinayət işi başlanmış, istintaq aparılır.

*****

Bakı ŞBPİ-nin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri ilə narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuşlar - Bakı şəhər sakini Ə.Abdullayev və Cəlilabad rayon sakini H.Qurbanov saxlanılmışlar.

Şəxsi axtarış zamanı H.Qurbanovdan 770 qram tiryək və 713 ədəd metadon həbi aşkar edilərək götürülmüşdür.

*****

Astara RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Təngərüd kənd sakini, əvvəllər məhkum olunmuş E.Əsgərovun evindən 6 kiloqram 657 qram marixuana aşkar edilərək götürülmüşdür.

*****

Samux RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Gəncə şəhər sakini T.Bayramov tərəfindən Yeni Nəbiağalı kəndindəki evlərdən birinin həyətyanı sahəsində kultivasiya yolu ilə yetişdirilmiş 14 ədəd çətənə kolu və 12 kiloqramdan artıq qurudulmuş marixuana aşkar edilərək götürülmüşdür.

*****

Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 17-də rayon ərazisindəki binalardan birinin liftinin 5 min manat dəyərində mühərrikini oğurlamaqda şübhəli bilinən Ağsu rayon sakini, əvvəllər məhkum olunmuş D.Bağırov və Göyçay rayon sakini P.İsmayılov saxlanılmışlar.

# “Xəzri” sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan“Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

## Sentyabr ayının 16-dan 22-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 203 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 57 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 196, o cümlədən borclu şəxs qismində axtarışda olan 85 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 115 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

## ŞƏRQ TƏBABƏTİNİN ON SİRRİ

**1. Təbəssümün müalicəvi gücü**

Ürəkdən gülməyi və ürəyinizi sevgi ilə doldurmağı unutmayın. Bu, bütün xəstəliklərin qarşısını alan profilaktik tədbirdir. Kədərli, qəzəbli, depressiv olduğunuz, ağladığınız və ya sinirli olduğunuz zaman orqanlar zəhərli maddə ifraz edir, ancaq xoşbəxt, xoşsimalı və gülərüz olsanız, beyin neyronlarınızdan ifraz olunan endorfin (digər adı "sevinc hormonudur") maddəsi sayəsində bütün ağrı-acılarınız azalar.

Heç kim üçün sirr deyil ki, bu gün biz monoton həyat yaşayırıq, hər gün təlaş içində harasa tələsirik. Çoxları üçün iş gününü baş ağrısı ilə başa vurmaq adət halına gəlib. Ətrafınızda və içərinizdə yığılan təzyiqin sizi udmaması üçün hər kəsə, hətta tanımadığınız insanlara da gülümsəyin. Belə sadə bir hərəkət sayəsində dünya dəyişir və sizi təhdid edən böyük bir narahatlıq hissi fikirlərinizi yavaş-yavaş tərk etməyə başlayır.

Daxili təbəssümün nəticələrini əvvəlcə qiymətləndirmək çətin ola bilər, lakin bu düzgün yerinə yetirildikdə faydası hiss edilir. Odur ki, harada olmağınızdan və nə işlə məşğul olmağınızdan asılı olmayaraq tez-tez və çox gülümsəyin, təbəssümü həyatınızın ayrılmaz bir parçasına çevirin. Ürəyinizi məhəbbətlə doldurub sevgi dalğalarının bədəni müdafiə etməsinə icazə verin.

**2. Lazım olduğundan çox danışmayın**

Daha az danışın, nə demək istədiyinizi, nə vaxt və necə söyləyəcəyinizi diqqətlə seçin. Çünki yerində deyilmiş söz ən qiymətli sükutu — Kainatı gözəlləşdirən həyat enerjisini qoruyur.

**3. Daha az danışın, daha çox hərəkət edin**

Keçmiş və gələcək haqqında az düşünün. Onlar səbəbsiz narahatçılıq doğurur, narahatçılıq isə stress yaradır. Çalışın konsentrasiya (fikirləri cəmləmək) olun, bu, həm də insanın özünəinam hissinin formalaşmasına kömək edir.

**4. Beyin gücünü inkişaf etdirin**

Bir çox dillərdə, o cümlədən çin dilində ağıl və ürək eyni sözlə ifadə olunur. Şəxsi ambisiyaları bir kənara qoyub mənəvi kamilliyə yüksəldiyiniz və ürəyinizi sevgi ilə genişləşdirdiyiniz zaman siz xəstəliklərdən xilas olmağın yolunu tapacaqsınız.

**5. «Başınızı sərin, ayaqlarınızı isti saxlayın»**

Bu məsələ əməl etmək vacibdir. Bu yolla siz başınızda narahatlıq yaradan, hətta xəstəliklərə belə gətirib çıxara bilən enerjinin yığılmasının qarşısını alacaqsınız.

Başa güclü enerji axını qan təzyiqini yüksəldə bilər. Enerjini ayaqlara yönləndirməklə təzyiqi aşağı sala bilərsiniz. İnfarktın qarşısını almaq üçün davamlı olaraq ayaqları isti saxlayın. Odur ki, dabanları ovaraq masajla isidin. Növbəti mərhələdə enerjini göbəkdə toplayın, yeri gəlmişkən, o da isti olmalıdır.

*Hazırladı: Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10156
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik